AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2021, № 2 (268), 89-96

D İ L Ç İ L İ K: Q R A M M A T İ K A

# Türk dillərinin tarixi sintaksisi

***Ramil Zeynalov***
Sumqayıt Dövlət Universiteti, Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının dissertantı. Azərbaycan. E-mail: ramilzeynalov1982@gmail.com
https://orcid.org/0000-0002-4669-1201

**XÜLASƏ**
Müstəqillik əldə edildikdən sonra ölkəmizdə dilçilik sahəsində bir sıra uğurlar əldə edilib ki, bunlardan biri də Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk” əsərinin Azərbaycan dilinə tərcümə edilməsidir. Bu tərcümədən sonra türkoloji araşdırmaların mərkəzi olan Azərbaycanda bu fundamental lüğətin araşdırılmasına və ciddi əsərlər yazılmağa başlandı. Türk dillərinin tarixi sintaksisini araşdıraraq onun inkişaf yolunu izləmək üçün əsərdə işlənən atalar sözü və məsəllərin mühüm əhəmiyyəti vardır. Bu nümunələrin sintaktik xüsusiyyətlərinin araşdırılması Azərbaycan dilçiliyi ilə yanaşı, türkoloji dilçilik üçün də mühüm faktların meydana çıxarılmasına şərait yaratmışdır. Əsərdə atalar sözü və məsəllərdə işlədilən söz birləşmələrinin növlərini və bu birləşmələrə aid sözlər arasındakı sintaktik əlaqələrin (yanaşma, idarə, uzlaşma) müasir Azərbaycan dili ilə müqayisəsini vermək türk dillərində, o cümlədən Azərbaycan dilində bu tip birləşmələrin tarixi inkişafını öyrənmək baxımından olduqca mühüm materiallar verir.

**AÇAR SÖZLƏR**
sintaksis, dilçilik, M.Kaşğari, türk dilləri

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 06.04.2021
qəbul edilib: 16.04.2021

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2021, NO. 2, VOL. 268, 89-96

L I N G U I S T I C S: G R A M M A R

# Historical syntax of Turkish languages

***Ramil Zeynalov***
Sumgait State University, dissertatist of the department of Azerbaijani language and teaching methods. Azerbaijan. E-mail: ramilzeynalov1982@gmail.com
https://orcid.org/0000-0002-4669-1201

**ABSTRACT**
After gaining independence, our country has achieved a number of successes in the field of linguistics, one of which is the translation of Mahmud Kashgari's "Divanu lugat-it-turk" into Azerbaijani. After this translation, the study of this fundamental dictionary and the writing of serious works began in Azerbaijan, the center of Turkic studies. Proverbs and parables used in the work are important for studying the historical syntax of the Turkic languages and following its development. The study of the syntactic features of these examples has created conditions for the emergence of important facts not only for Azerbaijani linguistics, but also for Turkological linguistics. The examples developed in Divan prove that the sentence structure has not changed for thousands of years in the historical development of Turkic languages. Comparing the types of proverbs and phrases used in proverbs and the syntactic relationships (approach, management, harmony) between words related to these compounds with modern Azerbaijani provides very important material for studying the historical development of such combinations in Turkish, including Azerbaijani.

**KEYWORDS**
syntax, linguistics, M.Kashgari, the Turkish languages

**ARTICLE HISTORY**
Received: 06.04.2021
Accepted: 16.04.2021

## Giriş / Introduction

Türk dillərinin tarixi sintaksisi digər sahələrlə müqayisədə az öyrənilsə də, son illərdə bu sahə ilə bağlı müəyyən tədqiqatlar aparılmışdır. Xüsusən də N.Hacıyeva və B.Serebrennikovun həmmüəllif olduqları “Türk dillərinin müqayisəli-tarixi qrammatikası (sintaksis)” [Сравнительно-историческая грамматика тюркских языков (синтаксис], Ə.Rəcəblinin “Göytürk dilinin sintaksisi”, Q.Kazımovun “Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi”, M.Musayevin “Türk ədəbi dillərində mürəkkəb cümlə sintaksisi” və yazılan digər kitabları bu sahədəki sanballı işlər sırasında saymaq olar. Bununla belə, tarixi sintaksis türkologiyada ən az tədqiq olunan sahələrdən sayılır. Bu mənada M.Kaşğarinin “Divanü lüğat-it-türk” əsərində işlənən atalar sözləri və məsəllərin sintaktik xüsusiyyətlərinin tədqiqi bu sahədə aparılan digər işlər üçün də təkan ola bilər. Qeyd edək ki, indiyə qədər dilçiliyimizdə bu istiqamətdə – M.Kaşğarinin “Divan”ında işlənən atalar sözləri və məsəllərin qrammatik xüsusiyyətlərinin öyrənilməsi istiqamətində, demək olar ki, heç bir iş görülməmişdir. Doğrudur, müstəqillik illərində bir çox sahələrdə olduğu kimi, dil tarixi istiqamətində də görülən işlərin sayı xeyli artmış və bu mənada M.Kaşğari ilə bağlı kifayət qədər tədqiqat işləri aparılmışdır. Görülən işlərdən biri professor R.Əsgərin “Divan”ın azərbaycanca nəşr edilməsidir. Məhz bu əsərin nəşrindən sonra Azərbaycan dilçiliyində M.Kaşğariyə olan maraq artdı və bu sahədə bir sıra tədqiqat işləri meydana gəldi. Fikrimizcə, bu mövzuda yazılan tədqiqat işlərinin sayı daha da artacaq və bu dəyərli əsərə dilçiliyimizdə dönə-dönə müraciət ediləcəkdir. Çünki Mahmud Kaşğari və onun bu dəyərli əsəri nəinki Azərbaycan dilinin, eyni zamanda bütövlükdə türk dillərinin tarixinin araşdırılması üçün ən qədim və dəyərli mənbələrdən biridir. Professor T.Hacıyev bu barədə danışarkən haqlı olaraq yazır: “Divanü lüğat-it-türk” min il bundan əvvəlki dilimizin, tarix və mədəniyyətimizin ən dəyərli, ən başlıca mənbəyi və məxəzi kimi elmimizdə tamamilə yeni üfüqlər və istiqamətlər açmağa, daha geniş, daha əhatəli və daha dərin araşdırmalar aparmağa kömək edəcəkdir” [4, s.7]. Bu fikirlər şübhəsiz ki, deyilənləri bir daha təsdiqləyir. “Divanü lüğat-it-türk” əsərinin tədqiqi dilçiliyimizin inkişafı, o cümlədən, türkoloji dilçiliyin inkişafı üçün yeni bir səhifə açır.

Türk dillərinin tarixi sintaksisinin tanınmış tədqiqatçılarından olan dilçi-alimlər N.Hacıyeva və B.Serebrennikov türk dillərinin tarixindən danışarkən yazırlar: “Bir çox türkoloqlar sintaksisi tipoloji bütöv kimi nəzərdən keçirir, amma müasir türk dillərində ən azı üç sintaktik tip vardır: qədim türk, keçici və Hind-Avropa və ya, daha dəqiq desək, türk Hind-Avropa”. Bu kontekstdən M.Kaşğarinin dövründəki

ümumtürk dilinin sintaksisinin tədqiqi, həm də türk dillərinin qrammatik quruluşunun tarixən inkişafını izləmək üçün əhəmiyyətli material verir. Professor N.Xudiyev T.Hacıyevə istinadən yazır: "...ümumiyyətlə belə bir mülahizə mövcuddur ki, ədəbi dilin sintaksisinin inkişaf səviyyəsi ən çox xalqın intellektual tərəqqisi, danışıq dili, sintaksisinin inkişafı isə, hər şeydən əvvəl, kollektivin adət-ənənələri, etnik təkamülü ilə mütənasibdir" [2, s.145]. Nəzərə alsaq ki, M.Kaşğarinin əsərlərində işlənən atalar sözləri və məsəllər xalq danışığından götürülüb, deməli, bu misallarda etnik təkamülü görə bilərik. Etnik təkamül isə heç şübhəsiz, dilin də təkamülü deməkdir. Deməli, dil tarixinin tədqiqi həmçinin dilin tarixi tərəqqisinin də tədqiqidir. Baxmayaraq ki, türk dillərinin tarixi tədqiqi onun lap qədimdən artıq formalaşdığını deməyə əsas verir. Bu özünü sintaktik quruluşda da göstərir. "Kitabi Dədə Qorqud" dastanının sintaktik quruluşundan bəhs edərkən dilçi-alim Q.Kazımov yazır: "Dədə Qorqud" dilinin sintaksisi elə kamil formadır ki, keçən 1500 ilin ərzində söz birləşməsi və cümlə strukturunda əsaslı bir dəyişiklik baş verməmişdir. Bütün yeniliklər təkmilləşmə, zənginləşmə və səlisləşmə istiqamətində olmuşdur. Sözlərin söz birləşməsi və cümlə şəklində, cümlələrin mətn şəklində əlaqələndirilməsi texnikası yalnız təkmilləşmə, zənginləşmə istiqamətində irəliləmişdir. Sintaktik əlaqələr, ismi və feili birləşmələr, sadə cümlələr, genişlənmiş sadə cümlələr, sadə quruluşlu mürəkkəb cümlələr müasir dildə olduğu kimidir. Sonralar, təbii olaraq, söz birləşməsi və cümlə modelləri zənginləşmiş, yönlük, yerlik, çıxışlıq halların qrammatik mənaları xeyli sabitləşmiş, feili tərkiblər inkişaf etmiş, qarışıq tipli mürəkkəb cümlə modelləri və mətnin sintaktik-semantik bağlılığını təşmin edən vasitə və üsullar çoxalmışdır [3, s.255]. M.Kaşğarinin "Divan"ında işlənən atalar sözləri və məsəlləri tədqiq edərkən biz bu mülahizənin bir daha şahidi oluruq. Belə ki, bu atalar sözlərinin bəziləri günümüzdə olduğu kimi işlənir və demək olar ki, heç bir dəyişikliyə uğramamışdır.

M.Kaşğarinin əsərinin bu xüsusiyyətlərindən danışarkən, ədəbiyyatşünas R.Əsgər yazır: "Ortaq türk ədəbiyyatı qədim dövrdə Orxon-Yenisey abidələrinin, orta dövrdə isə dörd fundamental, möhtəşəm klassik əsərin üzərində yüksəlir. Bunlar türk və dünya ədəbiyyatının ən nadir incilərindən biri sayılan "Dədə Qorqud" dastanı, bəşər tarixinin və mədəniyyətinin həcm etibarilə ən böyük əsəri olan "Manas" dastanı, böyük türk mütəfəkkiri, şairi və dövlət xadimi Yusif Has Hacib Balasaqunlunun "Qutadqu Bilik" poeması və ilk türk ensiklopedisti, dahi dilçi, filoloq, etnoqraf, mədəniyyətşünas Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəridir. Ümumtürk ədəbiyyatının təməl sütunları olan bu dörd şah əsərdən üçü türk dillərinin ayrı-ayrı qruplarına, məsələn, "Dədə Qorqud" oğuz qrupuna, "Manas" qıpçaq qrupuna, "Qutadqu Bilik" qarluq qrupuna məxsusdur. "Divanü lüğat-it-türk"

isə universal bir əsər kimi bütün qrup, dil və ləhcələrin fövqündə dayanan, onların arasında heç bir fərq qoymadan, istisnasız olaraq hamısını əhatə edən və özündə cəmləşdirən son dərəcə zəngin xəzinədir". "Divanü lüğat-it-türk" əsəri türk dilinin ortaq abidəsi olmaqla, təkcə türk dilinin nümunəsi deyildir. Əsərdə min il bundan əvvəlki türklüyün bütün xüsusiyyətləri – başda dili və ədəbiyyatı olmaqla türk xalqlarının tarixi, coğrafıyası, mədəniyyəti, iqtisadiyyatı, milli-mənəvi dəyərləri, psixologiyası, dünyagörüşü, həyat tərzi, adət və ənənələri, ailə, qohumluq, qonşuluq və ümumən sosial münasibətləri, geyimi, silahları, mətbəxi, oyunları, əyləncəsi... Bir sözlə, hər şeyi ideal şəkildə öz əksini tapmışdır. "Divan"da bütün bu xüsusiyyətləri, tarixi yaddaşı özündə ən çox əks etdirən isə heç şübhəsiz, atalar sözləri və məsəllərdir. Bu barədə M.Kaşğarinin özü də söz açır və yazır: "Kitabda türklərin dünyagörüşlərini və bilgilərini göstərmək üçün onların şeirlərindən, qayğılı və sevincli günlərində yüksək düşüncələr ifadə edən hikmətli sözlərindən misallar da verdim. Bunlar nəsillərdən-nəsillərə keçərək gəlmişdir" [1, s.8-52].

Dil özünəməxsus inkişaf qanunları olan mürəkkəb və çoxşaxəli bir sistemdir. Bu sistemin cəmiyyətin yarandığı gündən ona xidmət etməsi və insanlar arasında ünsiyyət prosesini həyata keçirməsi onu sistemlər sistemi kimi formalaşdırmışdır. Dilin təfəkkürü ifadə etməsi, dolayısı ilə onun cəmiyyətdə baş verən prosesləri, daha doğrusu, gerçəkliyi ifadə etməsi deməkdir. Gerçəklik isə bütün insanların beynində eyni şəkildə təcəssüm etsə də, müxtəlif şəkildə ifadə olunur. Deməli, təfəkkürün ifadə vasitəsi olan dil eyni məfhumu və ya hadisəni fərqli şəkildə ifadə edə bilər. Məsələn, biz uşağın yuxudan oyanmasını bir neçə formada ifadə edə bilərik: *oyanan uşaq, oyanmış uşaq, oyanacaq uşaq, yuxudan oyanan uşaq, uşağın yuxudan oyanması, uşağın oyanması* və s. Misallardan da göründüyü kimi, insan dili ifadə imkanlarına görə zəngindir. Bu zənginlik isə müxtəlif formalar hesabına reallaşır. Dilin əsas ifadə vasitəsi söz birləşmələri və cümlələrdir. Bu mənada sintaksis və onun predmeti olan söz birləşmələrinin və cümlələrin öyrənilməsi dilçilik baxımından hər zaman maraq doğurur.

Dilçilikdə bir çox məsələlər kimi söz birləşməsi məsələsi də yeni deyildir. Belə ki, söz birləşməsi problemi qədim dövrlərdən başlayaraq bu günə qədər dilçilərin diqqətində olmuş, bir sıra dilçilər bu sahəyə öz münasibətlərini bildirmişlər. Məhz buna görədir ki, həm ümumi dilçilikdə, həm də türkoloji ədəbiyyatda söz birləşməsi məsələsi müxtəlif cəhətdən izah edilmişdir. Bəzən söz birləşməsi ümumiyyətlə, kiçildilmiş, bəzən isə cümlə ilə eyniləşdirilmişdir. Bu məsələnin rus dilçiliyində daha geniş izah edildiyini qeyd edən dilçi alim N.Məmmədov yunan dilçiliyindən müasir rus dilçiliyinə qədər bir sıra görkəmli dilçilərin söz birləşməsinə münasibətini təhlil

edərkən yazır: "Göründüyü kimi, dilçilərin bəziləri, ümumiyyətlə, söz birləşməsini sintaksisin xüsusi obyekti hesab etməmiş (Buslayev, Potebnya), bu anlayışa olduqca müxtəlif mənalar vermişlər. İki bütöv sözün birləşməsini də (Fortunatov), sözlərin sadə cümlələr kimi birləşməsini də (Peterson), tam ifadəni daxil etməklə sözlərin bütün birləşmələrini də (Peşkovski), cümlənin hissəsini də (Şaxmatov), hətta ayrı-ayrı sözləri də (Peşkovski) söz birləşməsi hesab etmişlər" [Məmmədov N. Bakı, 1971].

Türkoloji ədəbiyyatda da söz birləşmələri haqqında kifayət qədər məlumat verilir. Doğrudur, professor Y.Seyidov türkologiyada söz birləşmələrinin tədqiqi tarixinin o qədər də qədim və zəngin olmadığını yazır. Lakin son illər türkologiyada bu sahədə də kifayət qədər tədqiqat işləri aparılmışdır. Y.Seyidovun özü də türkoloji ədəbiyyatda söz birləşmələrinin tədqiqi tarixini haqlı olaraq tədqiqat obyektimiz olan M.Kaşğaridən başladığını bildirir. Müəllif yazır: "Türkologiyanın bahadırı" adlanan Mahmud Kaşğarinin ilk və geniş müqayisəsini verən, bir sıra sahələrə aid ətraflı faktlarla zəngin olan "Divanü lüğat-it-türk" kimi irihəcmli əsərində söz birləşmələrinə nəzər yetirilməmiş və bunlar müqayisə obyekti kimi şərh edilməmişdir. M.Kaşğari yalnız nadir hallarda, sözü müəyyənləşdirmək məqsədi ilə birləşmələrə müraciət etmişdir. Məsələn, o, məsdərdən danışarkən, *"məning barığım", "keyir keliği"* kimi misallar verir və göstərir ki, bunlar (məsdərlər) əslində yox, izafət yolunda məsdər olanlardır. Yaxud o, boya, rəng mənasında olan *"çüvüt"* sözünü izah edərkən göstərir ki, *"çüvüt"* rənglərin hamısını toplayan bir kəlmədir. Aralarını ayırmaq üçün *"çüvüt"* kəlməsinə rəng isimləri (adları) artırılaraq söylənilir: *"kızıl çüvüt, al çüvüt, kor çüvüt*". Sonrakı mərhələlərdə də söz birləşmələri türkoloji ədəbiyyatda səthi şərh olunmuşdur. Yalnız XX əsrdən başlayaraq, bu sahədə ciddi əsərlər yazılmağa başlanır. Doğrudur, söz birləşmələri ilk əvvəllər yalnız izafət kimi öyrənilsə də, sonralar söz birləşmələrinə kompleks yanaşma müşahidə olunur [8, s.9-313].

Görkəmli türkoloq-alim N.A.Baskakov haqlı olaraq türk dillərində əsas sintaktik vahidlərin söz birləşməsi və cümlə olduğunu bildirir. Alim söz birləşmələrinin cümlədən fərqindən danışarkən qeyd edir ki, cümləni təşkil edən sözlərdə hökm ifadə olunduğu halda, söz birləşmələrini təşkil edən sözlər arasında hökm ifadə olunmur. N.A.Baskakov qaraqalpaq dilindəki söz birləşmələrini sabit və qeyri-sabit olmaqla iki yerə bölür və bunun bütün türk dillərində özünü göstərdiyini yazır [9, s.50-61].

Türkoloq-alim M.B.Balakayev isə qazax dilinin qrammatikasından bəhs edərkən onların quruluşu və növlərindən söz açır. Alim söz birləşmələrini ismi və feili olmaqla iki yerə bölür. Yakut dilinin sintaksisindən bəhs edərkən türkoloq-alim Y.İ.Ubryatova söz birləşmələrinin yalnız cümlə daxilində reallaşdığını qeyd edir. Türk dillərinin qrammatik quruluşu və söz birləşmələri ilə bağlı ən dəqiq müəyyənləşməyə isə biz dilçi-alim Ə.Rəcəblinin elmi yaradıcılığında rast gəlirik. Müəllif Göytürk dilinin qrammatik quruluşu barədə yazır: "Türk dilləri öz inkişafının hələ Orxon-Yenisey dövründə (VII-VIII yüzilliklər) yetkin qrammatik quruluşa malik olmuşdur. Bu yetkinlik özünü göytürk dilinin morfologiyasında göstərdiyi kimi, sintaksisində də göstərir. Göytürk dili qeyri-predikativ söz birləşmələrinin sintaktik çalarına görə müasir türk dillərindən nəinki geri qalmır, hətta onların bir çoxundan daha zəngindir: Göytürk dilində müasir türk dillərində rast gəldiyimiz qeyri-predikativ söz birləşmələrinin bütün növləri işlənir, növlərin məna çalarlarına gəlincə isə, qədim türk qəbilələrinin dili bu sahədə, bəlkə də, müasir türk xalqlarının dillərindən, bu paradoks kimi görünsə də, daha rəngarəng, daha zəngindir" [Rəcəbli Ə. Bakı, 2003].

Söz birləşmələrinin daha doğru izahı üçün ilk növbədə, onların təsnif prinsiplərini müəyyənləşdirmək lazımdır. İndiyə qədər türk dillərinin tədqiqi tarixində söz birləşmələrinin müxtəlif təsnifləri olmuşdur. Y.Seyidov yazır: "Hər bir elm sahəsində, hər bir problematik məsələnin tədqiqində olduğu kimi, söz birləşmələrinin hərtərəfli və düzgün izahı üçün onların təsnif edilərək qruplaşdırılması mühüm əhəmiyyətə malikdir. Təsnifat tədqiqat obyektini əhatə etmək, dəqiqləşdirmək və düzgün başa düşmək üçün ən əhəmiyyətli vasitələrdən biridir" [7, s.142].

## Nəticə / Conclusion

Türk dillərində, o cümlədən Azərbaycan dilindəki sintaktik əlaqə formaları min illər boyu demək olar ki, dəyişməmişdir. Biz bunu türk dilləri ilə bağlı digər yazılı mənbələrdə də görürük. Məsələn, "Kitabi Dədə Qorqud" dastanında sintaktik əlaqələrdən danışarkən Q.Kazımov yazır: "Dastanların dilində cümləni təşkil edən sözlər arasında qrammatik əlaqələr müasir dildə olduğu kimidir – tabesizlik və tabelilik əlaqələrindən ibarətdir. Tabesizlik özünü sadə cümlənin həmcins üzvləri, tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında göstərir. Məs.: Qalqubanı xan Bayındır yerindən turmış, bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq dikdirmiş. Hünəri oğul atadanmı görər, ögrənər, yoxsa atalar oğuldanmı ögrənür? – cümlələrindən birincisində həmcins üzvlər, ikincisində həmcins üzvlər və tabesiz

mürəkkəb cümlənin komponentləri tabesizlik yolu ilə əlaqələnmişdir" [3, s.508]. Daha sonra müəllif yazır: "Həmcins üzvlərin və tabesiz mürəkkəb cümlə komponentlərinin əlaqələndirilməsində əsas vasitə prosodik vasitələrdir, fakt və hadisələrin sadalanması, qarşılaşdırılması, fərqləndirilməsi, bölüşdürülməsi üsullarıdır və bu prosesdə nitqin ritmik-melodik axını əsasdır; məs.: Mənim savaşdığım, mənim dögüşdügim, mənim çəkişdigim, mənim qılıclaşdığım görgil, ögrəngil! Ox atdılar, batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə sancdılar, ilmədi və s. Hazırkı canlı danışıq dilində olduğu kimi, bir komponentə aid sözün öz yerində deyil, digər komponentlə işlənməsi halları da intonasiyanın təbii imkanlarından irəli gəlmişdir. "Bəkil beş gün oldı, divana çıqmadı" cümləsində "Bəkil" sözündən sonra edilən aydın fasilə həmin sözü birinci komponentdən ayırır və ikinci komponentlə birləşdirir. Bu cür cümlələrdə sonralar canlı danışıq dilinə yol tapmış, amma bağlayıcısının işlənməsinə də ehtiyac olmamışdır" [3, s.500]. Bu ifadələri M.Kaşğarinin "Divan"ında işlənən atalar sözləri və məsəllərin sintaksisi haqqında da demək olar.

**İstifadə olunmuş ədəbiyyat / References**

1. Əsgər R. (2008). Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri üzrə biblioqrafik və qrammatik göstərici. Bakı. 192 s.
2. Xudiyev N. (1997). Azərbaycan ədəbi dil tarixi. Ankara. 491 s.
3. Kazımov Q. (2003). Azərbaycan dilinin tarixi. Bakı, Təhsil. 583 s.
4. Mahmud K. (2006). "Divanü lüğat-it türk". Dörd cilddə, I cild. Bakı, Ozan. 752 s.
5. Məmmədov N. (1971). Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı, Maarif. 368 s.
6. Rəcəbli Ə. (2003). Göytürk dilinin sintaksisi. Bakı, Nurlan. 630 s.
7. Seyidov Y. (2006). Əsərləri. On beş cilddə, I cild. Bakı, Bakı Dövlət Universiteti Nəşriyyatı. 628 s.
8. Seyidov Y. (2014). Azərbaycan dilində söz birləşmələri. Azərbaycan dilinin funksional qrammatikası: söz birləşmələri, tabeli mürəkkəb cümlələr, frazeologiya. Dörd cilddə, IV cild. Bakı, Prestige çap evi. 313 s.
9. Baskakov A.N. (1972). Nekotoriye sporniye voprosi sintaksisa bessoyuznikh slozhnopodchinennikh predlozheniy v turetskom yazike. "Sovetskaya tyurkologiya". Baku. s.50-61.